RETTƏŞ-in 22 dekabr 2009-cu il tarixli 6/5 nömrəli qərarı ilə təsdiq edilmişdir.

***Elmin istiqamətləri üzrə problem şuraları haqqında***

## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1.1. Elmin müvafiq istiqaməti üzrə Problem Şurası (bundan sonra – Problem Şurası) Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının (RETTƏŞ) Əsasnaməsinə müvafiq olaraq RETTƏŞ-in qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsini təmin etmək üçün yaradılır.

1.2. Problem Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və digər qanunvericilik aktlarını, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, AMEA-nın nizamnaməsini, RETTƏŞ haqqında Əsasnaməni və bu Əsasnaməni rəhbər tutur.

1.3. Problem Şurası öz adı olan möhürə, ştampa və blanka malikdir. Problem Şurası hüquqi şəxs deyil.

### II. Əsas vəzifələri

2.1. Problem Şurasının əsas vəzifələri aşağıdakılardır:

2.1.1. fundamental və tətbiqi elmi tədqiqatların prioritet istiqamətlərini və mövzularını müəyyənləşdirmək və respublikanın elmi-tədqiqat və ali təhsil müəssisələrində bu istiqamətlər üzrə tədqiqatların aparılmasını təmin etmək;

2.1.2. elmi-tədqiqat və ali təhsil müəssisələri tərəfindən elmi-tədqiqat işlərinin planlarının hazırlanması, prioritet problemlərin və mövzuların elmi-tədqiqat işlərinin planlarında nəzərə alınmasına nəzarət etmək;

2.1.3. elmi-tədqiqat işlərinin planlarının icra edilməsinin vəziyyətini ildə 2 dəfədən az olmayaraq təhlil etmək, Problem

Şurasının bu barədə qərarını müvafiq müəssisələrin nəzərinə çatdırmaq;

2.1.4. müvafiq müəssisələrin rəhbərlərinə elmi-tədqiqat işlərinin planlarında zəruri dəyişikliklər, əlavələr edilməsi barəsində tövsiyələr vermək;

2.1.5. elmi-tədqiqat işlərinin rəhbərlərinin elmi-tədqiqat işlərinin təşkili və yerinə yetirilməsi haqqında hesabatını dinləmək və müzakirə etmək, işlərin nəticələrini qiymətləndirmək və onların səmərəliliyinin artırılmasına yönəlmiş təkliflər vermək;

2.1.6. Respublikanın elmi-tədqiqat və ali təhsil müəssisələrində elmi tədqiqatları əlaqələndirmək, elmi tədqiqatlarda təkrarçılığı aradan qaldırmaq, fundamental və perspektiv problemlərə dair kompleks elmi-tədqiqatların aparılmasını təşkil etmək və ona nəzarəti təmin etmək;

2.1.7. fundamental və tətbiqi elmi tədqiqatlar üzrə dövlət proqramlarının hazırlanmasında və yerinə yetirilməsində iştirak etmək;

2.1.8. Respublikada elmi tədqiqatların nəticələrinin təcrübədə tətbiqi haqqında RETTƏŞ-ə müvafiq təkliflər vermək;

2.1.9. Azərbaycan Respublikasında və xarici ölkələrdə elmi-tədqiqat işlərinin təşkili və aparılması təcrübəsini öyrənmək və ümumiləşdirmək, elmi problemlərin müzakirəsinə həsr olunmuş simpoziumların, konfransların, seminarların və sessiyaların keçirilməsini təşkil etmək;

2.1.10. elmin prioritet istiqamətləri və problemləri üzrə elm və ali təhsil müəssisələrinin .fəaliyyətinə elmi-metodiki rəhbərliyi həyata keçirmək;

2.1.11. elmin mühüm istiqamətləri üzrə ali təhsilli mütəxəssislərin və elmi kadrların hazırlanmasına dair təkliflər vermək;

2.1.12. Respublikanın sosial-iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edən elmi istiqamətlərin və problemlərin tədqiqini, elmi problemlərin müasir dünya təcrübəsinə, prioritet elmi işlərin müəyyən edilmiş tələblərinə uyğun gəlməsini təmin etmək məqsədilə aktual dissertasiya mövzularının təxmini siyahısını tərtib etmək, onu elmi-tədqiqat və ali təhsil müəssisələrinin elmi şuralarına tövsiyə etmək, qeydiyyata alınan və təsdiq olunan mövzuların bu siyahıya uyğunluğunu təmin etmək;

2.1.13. doktoranturaya və dissertanturaya cari və perspektiv qəbul planlarının hazırlanmasında iştirak etmək, elm və ali təhsil müəssisələrindən alınmış məlumatları müzakirə etmək, bu barədə RETTƏŞ-ə və müvafiq dövlət orqanlarına təkliflər vermək;

2.1.14. elmi-tədqiqat və ali təhsil müəssisələrində elmin müvafiq istiqamətləri üzrə dissertasiya mövzularının işlənilməsi barədə rəy vermək, onların qeydiyyatını aparmaq və bu barədə əlaqədar qurumlara məlumat vermək. Mövzular müvafiq problem şuralarında müzakirə olunaraq qeydiyyata alındıqdan sonra elmi-tədqiqat və ali təhsil müəssisələrinin elmi şuralarında təsdiq oluna və işlənilə bilər.

**III. Funksiyaları**

3.1. Problem Şurası respublikanın elmi-texniki, iqtisadi, sosial və mənəvi inkişafına yönələn fundamental və perspektiv istiqamətlər üzrə elm və ali təhsil müəssisələrində tədqiqat işlərinin aparılmasını təklif edir;

3.2. təkrar mövzuların işlənməsinə yol verməmək və mühüm elmi problemlərin həllini təmin etmək məqsədilə alimlərin elmi fəaliyyətini əlaqələndirir və kompleks sahələrarası elmi-tədqiqat planlarının hazırlanmasına dair təkliflər verir. Elmi-tədqiqat və ali təhsil müəssisələrində işlənilməsi nəzərdə tutulan mövzular müvafiq problem şurasında qeydiyyata alındıqdan sonra həmin müəssisələrin elmi şuralarında təsdiq edilə və iş planına salına bilər;

3.3. fundamental elmi tədqiqatlar üzrə əlaqələndirməni təşkil edir və ona nəzarəti həyata keçirir;

3.4. elm və ali təhsil müəssisələrində aparılan fundamental elmi-tədqiqat işləri üzrə əlaqələndirmənin təşkilinə kömək edir və bu sahədə fəaliyyəti daha da gücləndirir;

3.5. öz fəaliyyətini respublika və dünya təcrübəsinin elmi-tədqiqat işlərinin planlaşdırılması, onların sosial-iqtisadi, elmi-texniki və s. vəzifələrin həllinə yönələn fundamental istiqamətlərin müəyyənləşdirilməsi, elmi nailiyyətlərin təcrübədə tətbiqi və s. məsələlərin öyrənilməsi və ümumiləşdirilməsi əsasında həyata keçirir;

3.6. elmi kadrların hazırlanmasına, elmi potensialın inkişafına və yaxşılaşdırılmasına kömək etmək məqsədilə doktorantura və dissertantura yolu ilə elmi kadr hazırlığının təkmilləşdirilməsinə dair təkliflər verir;

3.7. mühüm nəticələrə nail olan, ölkənin sosial-iqtisadi inkişafına, təhlükəsizliyinin və müdafiəsinin möhkəmləndirilməsinə xidmət edən elmi-tədqiqat işlərinin təşkili və aparılması təcrübəsinin geniş yayılması üçün informasiya bülletenlərinin buraxılması, konfrans, simpozium, seminarların keçirilməsi və s. yolu ilə müvafiq tədbirlər həyata keçirir;

3.8. elm və təhsil sahələrində dövlət siyasətinin həyata keçirilməsinə kömək etmək məqsədi ilə öz səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görür, fundamental və tətbiqi elmi tədqiqatlara dair dövlət proqramlarının hazırlanmasında iştirak edir, onların yerinə yetirilməsi və nəticələrinin təcrübədə tətbiq edilməsinə dair təkliflər verir;

3.9. doktoranturaya və dissertanturaya qəbul üzrə perspektiv planların hazırlanmasında və ixtisaslı kadrlara daha çox ehtiyacı olan elm sahələri üçün yerlərin ayrılması üzrə tövsiyələr verir;

3.10. elm və texnikanın prioritet və perspektiv istiqamətlərinin işlənilməsi, elmi-tədqiqat işlərinin əlaqələndirilməsi, yüksək ixtisaslı kadrlarla təmin edilməsi, tədqiqat işlərinin nəticə etibarilə səmərəliliyinin qiymətləndirilməsi üzrə məsələlərin, eləcə də bu Əsasnamə ilə nəzərdə tutulan digər vəzifələrin realizə mexanizmini işləyib hazırlayır.

3.11. elmin müvafiq istiqamətləri üzrə yeni elmi və elmi-texniki jurnalların təsis olunmasına dair rəy və tövsiyələr verir.

## IV. Hüquqları

4.1. Elmi-tədqiqat işlərinin planlarının hazırlanmasında iştirak etmək, bu planlara fundamental və perspektiv problem və mövzuların daxil edilməsi, qeyri-perspektiv və təkrar olunan mövzuların plandan çıxarılması və onalrın maliyyələşdirilməsinin dayandırılması və s. barədə təkliflər vermək;

4.2. elmi-tədqiqat işlərinin keyfiyyətinin qiymətləndirilməsi məqsədi ilə zəruri hallarda aparıcı mütəxəssislərin iştirakı ilə onların ekspertizasını həyata keçirmək;

4.3. elmi tədqiqatların nəticələrinin təcrübədə tətbiqi barədə elm və ali təhsil müəssisələrindən, müvafiq nazirlik və idarələrdən məlumatlar almaq, onların təhlili əsasında çıxarılan nəticələri elmi-tədqiqat işlərinin planlaşdırılmasında nəzərə almağı tövsiyə etmək;

4.4. elmi-tədqiqat işlərinin planlarının işlənməsinə və yerinə yetirilməsinə dair müvafiq elm və ali təhsil müəssisələrinin elmi şurlarında aparılan müzakirələrdə iştirak etmək və təkliflər vermək;

4.5. elmi problemlə bağlı işlərin yerinə yetirilməsi üçün ayrılan maliyyə, material ehtiyatlarından, həmçinin avadanlıq və cihazlardan səmərəli istifadə olunmasına dair tövsiyələr vermək;

4.6. problemlər üzrə tədqiqat aparan müəssisələrin elmi kadrlarla təmin edilməsi məqsədilə müəssisələrdə doktoranturaya və dissertanturaya perspektiv qəbul planının müzakirəsində iştirak etmək, yeni və daha çox ehtiyac olan ixtisaslar üzrə aspirantura və dissertanturaya yer ayrılması barədə AMEA-nın müvafiq elmi bölmələri qarşısında vəsatət qaldırmaq;

4.7. doktorluq dissertasiyalarının yerinə yetirilməsi, müdafiəsi və Aərbaycan Resublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilməsi barədə elm və ali təhsil müəssisələrindən hesabatlar almaq və bu haqda Problem Şurasının iclaslarında onun müzakirəsinin nəticələri əsasında AMEA-nın müvafiq bölmələrinə təkliflər vermək;

4.8. yüksək elmi nəticələr əldə edən, ölkənin sosial-iqtisadi inkişafına, təhlükəsizliyinin və müdafiəsinin möhkəmləndirilməsinə yönələn mühüm əhəmiyyətə malik olan elmi-tədqiqat işlərini fərqləndirmək və həmin işlərin müəlliflərinin mükafatlandırılması barədə RETTƏŞ qarşısında vəsatət qaldırmaq;

4.9. fundamental tədqiqatların yüksək səviyyədə aparılmasını təmin etmək məqsədilə elm və təhsil müəssisələrinin optimal inteqrasiya formalarını tətbiq etmək, kompleks elmi-tədqiqat planlarının hazırlanması və elmi problemlərin həlli aparıcı mütəxəssislərin qüvvələrinin birləşdirilməsi üzrə təkliflər vermək;

4.10. elmi istiqamətlər və bu istiqamətlərə aid problemlər üzrə şura, laboratoriya və şöbələrin yaradılması və ləğv edilməsi barədə RETTƏŞ-ə təkliflər vermək;

4.11. elm və texnika sahəsində normativ hüquqi bazanın yaradılması, habelə təkmilləşdirilməsinə dair müvafiq təkliflər vermək;

4.12. Azərbaycanda fəaliyyət göstərən fondlara təqdim edilən layihələrə rəy vermək.

**V. İdarə olunması**

5.1. Problem Şurasının tərkibi sədr, sədr müavini, elmi katib və digər üzvlərdən ibarət olur və RETTƏŞ tərəfindən təsdiq edilir.

5.2. müxtəlif elm sahələri üzrə aparıcı alim və mütəxəssisləri, elmi-tədqiqat işlərinin yerinə yetirilməsində iştirak edən nazirlik və idarələrin, habelə digər təşkilatların nümayəndələri Problem Şurasının üzvləri ola bilər.

5.3. Problem Şurasının səlahiyyət müddəti 5 ildir. Şura yeni müddətə təsdiq olunduqda onun tərkibinin ən azı 1/3-i təzələnir.

5.4. Problem Şurasının elmi-təşkilati işlərini həyata keçirmək üçün Şuranın elmi katibinin rəhbərlik etdiyi işçi qrupu yaradılır.

5.5. Problem Şurasının iclasları ildə 4 dəfədən az olmayaraq keçirilir. Problem Şurasının üzvlərinin 2/3-si iştirak etdikdə o, qərar qəbul etməyə səlahiyyətlidir. Problem Şurasının qərarı iclasda iştirak edənlərin sadə səs çoxluğu il ilə qəbul edilir.

5.6. Problem Şurasının üzvləri ictimai əsaslarla fəaliyyət göstərir.

5.7. Problem Şuralarının maddi-texniki təminatı AMEA Rəyasət Heyətinin müvafiq qurumları, habelə həmin şuranın fəaliyyət göstərdiyi elm və ya təhsil müəssisələri tərəfindən həyata keçirilir.